MUSİQİ DÜNYASI 2/83 2020

# YALÇIN ADIGÖZƏLOV-60

Ofelya İSGƏNDƏROVA

Azərbaycan torpağı daim tarixdə iz qoymuş neçə-neçə istedadlı, görkəmli şəxsiyyətlər yetirmişdir. Belə şəxsiyyətlərdən biri incəsənət tarixinə adını böyük hərflərlə həkk etmiş, musiqimizi respublikanın hüdudlarından kənarda böyük müvəffəqiyyətlə təmsil edən tanınmış dirijor, professor, Xalq artisti, Əməkdar incəsənət xadimi Yalçın Vasif oğlu Adıgözəlovdur.

Bu gün biz Azərbaycan musiqi mədəniyyətinin inkişafında Adıgözəlovlar nəslinin əvəzsiz rolundan qürurla danışa bilərik. Çünki Y.Adıgözəlovun istedadına böyüyüb, boya başa çatdığı mühitin böyük təsiri olmuşdur. O, 1959-cu ildə Bakı şəhərində doğulmuş, ziyalı bir ailədə böyümüşdür. Onun babası tanınmış xanəndə Zülfü Adıgözəlov, atası Azərbaycan Respublikasının Xalq artisti, professor, görkəmli



bəstəkar Vasif Adıgözəlovdur. Öz sələflərinin layiqli davamçısı, maestro Niyazi sənətinin vurğunu olan dirijor elə musiqinin incəliklərini də atasından əxz etmişdir.

İstedadlı musiqiçi orta təhsilini Bülbül adına orta ixtisas musiqi məktəbində fortepiano sinfində başa vurduqdan sonra, Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olur və 1982-ci ilədək fortepiano ixtisası üzrə professor Rauf Atakişiyevin sinfində dərs alır. Sonra təhsilini davam etdirmək üçün Leninqrad şəhərinə gedir və N.M.Rimski-Korsakov adına Leninqrad Dövlət Konservatoriyasına dirijorluq ixtisası üzrə qəbul olaraq, 1984-1989-cu ilə qədər maestro İ.A.Musindən opera simfonik dirijorluğu ixtisası üzrə təhsil alır. Bir müddət də Vyana Musiqi Akademiyasında professor Karl Esterrayxerin yanında təcrübə keçmişdir.

Konservatoriyanı uğurla bitirdikdən sonra dirijor Vətənə qayıdır və 1991-ci ildən 1998-ci ilə qədər Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik orkestrinin bədii rəhbəri və baş dirijoru, 1998-2000-ci illərdə Rusiya Televiziya - Dövlət Simfonik Radio orkestrinin dirijoru olmuşdur. 2000-ci ildən də İstanbul Dövlət Opera və Balet Teatrının dirijorudur. O, rəhbərlik etdiyi kollektivlə həm vətəndə, həm də müxtəlif xarici ölkələrdə böyük uğurlara imza atmışdır.

Qeyd edək ki, dirijor müxtəlif xarici ölkələrdə qastrol səfərlərində olaraq, ABŞ, Braziliya, Meksika, Cənubi Afrika, İspaniya, İngiltərə, İtaliya, Avstriya, Ruminiya, Belçika, Lüksemburq, Macarıstan, Türkiyə, Çin, Sankt-Peterburq Filarmoniyasının orkestri, Rusiya Milli Orkestri, P.İ.Çaykovski adına Böyük Simfonik orkestri və bir çox aparıcı simfonik orkestrlərlə əməkdaşlıq etmiş, M.Rostropoviç, N.Petrov, S.Stadler, İ.Moniqetti kimi tanınmış musiqiçilərlə çıxış etmişdir.

Dirijor 1993-cü ildə Moskva Konservatoriyasında Niyazinin 80 illiyinə həsr olunmuş tədbirdə Rusiya Milli Simfonik orkestrinə rəhbərlik edərək, maestro Niyazinin "Rast" simfonik muğamı, Q.Qarayevin "Leyli və Məcnun" simfonik poeması, "İldırımlı yollarla" baletindən "İkinci süita", F.Əmirovun "Azərbaycan kapriççiosu" çox təntənəli şəkildə tamaşaçılara təqdim edildi. Burada onun görkəmli dirijorumuz Niyazidən bəhrələndiyini, onun üslubuna istinad etdiyini görmək mümkündür.

Dirijor Y.Adıgözəlov Brüsseldə 2000-ci ildə görkəmli bəstəkar F.Əmirova həsr olunmuş müəllif konsertində Brüssel Kral Konservatoriyasının simfonik orkestrinə rəhbərlik etmiş, həmin ildə də Moskva Konservatoriyasında Radio və Televiziyanın Böyük Simfonik orkestrinin ifasında P.İ.Çaykovskinin "Françeska da Rimini", S.Prokofyevin fortepiano və orkestr üçün 2 saylı konsertinə və S.Raxmaninovun 2 saylı konsertinə məharətlə dirijorluq etmişdir.

2002-ci ildə dirijor Y.Adıgözəlov İstanbul Opera və Balet Teatrında K.Sen-Sansın "Samson və Dalila", P.İ.Çaykovskinin "Yevgeni Onegin", Moskvada J.Bizenin "Karmen" operasını ifa etməklə tamaşaçıların böyük rəğbətini qazanmışdır. Onun İstanbulda A.Borodinin "Knyaz İqor" operasını ilk dəfə rus dilində səsləndirməsi təqdirə layiq hal idi. Burada o, həmçinin C.Puççininin "Madam Batterflay" operasını böyük professionallıqla tamaşaçılara təqdim etmişdir. Y.Adıgözəlovun rəhbərliyilə Ankaranın Prezident Simfonik orkestrinin ifasında bəstəkar Vasif Adıgözəlovun "Violonçel üçün konsert"i, fortepiano və simfonik orkestrin müşayiətilə ilə 4 saylı konserti müvəffəqiyyətlə səsləndirilmişdir.

Maestronun dirijorluğu ilə 2014-cü ildə Çinin paytaxtı Pekində səsləndirilən Ü.Hacıbəylinin "Koroğlu" operasından Uvertura, Q.Qarayevin "Yeddi gözəl" baleti,

S.Hacıbəyovun "Karvan" simfonik lövhəsi, F.Əmirovun "Nəsimi" və "Azərbaycan kapriççiosu" əsərləri asiyalı dinləyicilərin qəlbini riqqətə gətirmişdir.

2020-ci il Moskva musiqili teatrında professor Y.Adıgözəlovun dirijorluğu ilə bəstəkar L.Vaynşteynin "Zoluşka" operasının uğurlu premyerası keçirildi və dirijorun "sehrli çubuğu" dinləyicilərə böyük zövq yaşatmağa müfəssəl olur.

Y.Adıgözəlov tanınmış pianoçularla da maraqlı layihələr həyata keçirmişdir. Belə ki, o, dünya şöhrətli pianoçu, Xalq artisti, professor, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli ilə dahi Norveç bəstəkarı E.Qriqin "Fortepiano və orkestr üçün konsert", 2014-cü il Londonda tanınmış pianoçu, Xalq atisti, professor Yeganə Axundova ilə F.Əmirovun "Ərəb mövzularına konsert" əsərlərini çox uğurla ifa etmişdirlər.

Dirijor bir çox Orta Asiya şəhərlərində də uğurla çıxış edərək, bir müddət "Qaya" kamera orkestrinin bədii rəhbəri olmuşdur.

Qeyd edək ki, Y.Adıgözəlov Azərbaycan bəstəkarlarının əsərlərini də böyük ustalıqla əcnəbi dinləyicilərə sevdirməyə müvəffəq olmuşdur. Belə ki, o, Niyazinin, Q.Qarayevin, F.Əmirovun, V.Adıgözəlovun, M.Mirzəyevin, M.Quliyevin və bir çox görkəmli bəstəkarlarımızın əsərlərini professionallıqla səsləndirərək, tamaşaçıların qəlblərini fəth etmişdir.

Dirijor öz vətənində də bir-birindən maraqlı konsert proqramları ilə çıxış edərək, həmyerlilərimizin qəlblərini əsrarəngiz musiqi ritmləri ilə döyünməyə vadar etməkdədir. Buna Y.Adıgözəlovun rəhbərliyi ilə 2003-cü ildə Azərbaycan Opera və Balet Teatrında V.Adıgözəlovun "Natəvan", 2011-ci ildə V.A.Motsartın "Sehrli fleyta", 2013-cü ildə C.Puççininin "Madam Batterflay"operalarının və 2014-cü ildə Niyazinin "Rast" simfonik muğamının uğurlu premyerasını misal göstərmək olar.

Professor Y.Adıgözəlov böyük səhnələri fəth etməklə yanaşı, həm də bütün tələbələrinin sevgisini qazanmış bir pedaqoqdur. O, 1997-ci ildən pedaqoji fəaliyyətə başlamış, Bakı Musiqi Akademiyasında dirijorluq sinfində neçə-neçə istedadlı tələbələr yetişdirməkdədir. Onun tələbələri sırasında müəllimlərinin yolunu uğurla davam etdirən Fəxrəddin Atayev, Sevil Hacıyeva, Əyyub Quliyev və başqaları musiqi mədəniyyətimizin layiqli təmsilçiləridirlər.

Yalçın müəllimin 2019-cu ildə 60 illik yubileyi müxtəlif tədbirlərlə yadda qaldı. Professorun yubileyi ilə əlaqədar Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında və Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında təntənəli konsertlər təşkil olundu.

Y.Adıgözəlovun yubileyinə həsr olunmuş konsertin açılış nitqində BMA-nın rektoru, SSRİ və Azərbaycanın Xalq artisti, dünya şöhrətli pianoçu, professor Fərhad Bədəlbəyli Yalçın Adıgözəlovun Azərbaycan musiqi mədəniyyətindəki böyük xidmətlərindən, səmərəli fəaliyyətindən bəhs edərək, onu yubiley münasibəti ilə təbrik etdi.

Sonra konsert proqramına yer verildi. Proqramda Yalçın Adıgözəlovun rəhbərliyi və Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri ilə BMA-nın "Baku Chamber Orchestra" - Gənclər Kamera orkestrinin müşayiətilə bəstəkar Edvard Qriqin "Holberq" suitası, Bella Bartokun "Rumın rəqsləri", Jean Sibeliusun "Vals Triste", sonra solist Xalq artisti, professor Yeganə Axundovanın ifasında Georgi Sviridovun Kamera orkestri üçün musiqi, solist Tamerlan Adıgözəlovun ifasında Vasif Adıgözəlovun Fortepiano və orkestr üçün 1 saylı konsert (II hissə) və Prelüd N.1, solist Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi, beynəlxalq müsabiqələr laureatı Xəyal Əliyevin ifasında Astor Piazzolanın "Oblivion" əsərləri səsləndirildi.

2019-cu il noyabr ayının 8-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında da Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin iştirakı ilə Xalq artisti Yalçın Adıgözəlovun 60 illiyinə həsr olunmuş möhtəşəm konsert keçirildi. Konsertin açılışını Azərbaycan Respublikasının Mədəniyyət Naziri Əbülfəz Qarayev etdi. O, görkəmli dirijoru yubiley münasibətilə təbrik edib, yeni yaradıcılıq uğurları arzu etdi.

Konsertdə Dmitri Şostakoviçin "Bayram uvertürası", Asəf Zeynallının "Ölkəm", Moris Ravelin "Dafnis və Xloya" baletindən 2 nömrəli suita, Vasif Adıgözəlovun "Qərənfil" əsərləri səsləndirildi.

2019-cu ildə 60 illik yubiley və dirijorluq fəaliyyətinin 30-cu il dönümü ilə əlaqədar Y.Adıgözəlov Türkiyənin böyük şəhərlərində də unudulmaz konsert proqramları ilə çıxış etmişdir.

Ölkəmiz hər zaman Vətənin adını zirvələrə qaldıran, istedadlı övladlarını diqqət mərkəzində saxlamış, mükafatlandırmışdır. Xalq artisti Y.Adıgözəlov da musiqi mədəniyyətimizdəki xidmətlərinə görə müxtəlif mükafatlarla təltif olunmuşdur. O, 1993-cü ildə "İlin ən yaxşı dirijoru (Humay)" mükafatını almış, 2019-cu ildə isə Xalq artistinin yubileyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Şöhrət" ordeni ilə təltif edilmişdir.

2019-cu ilin noyabr ayında 60 yaşı tamam olan Xalq artisti, Əməkdar incəsənət xadimi, professor "Şöhrət" ordenli dirijor Yalçın Adıgözəlov öz yaradıcılığında daima axtarışda olaraq, böyük səhnələrdə musiqi mədəniyyətimizi usanmadan təbliğ edir.

Biz də öz növbəmizdə sevimli dirijorumuzu yubiley münasibətilə təbrik edir, ona can sağlığı, yaradıcılığında böyük nailiyyətlər, yeni-yeni zirvələri fəth etməyi arzulayırıq.

## ƏDƏBİYYAT


1. Əfəndiyeva İ. Axtarış yollarının bəhrəsi. B.: Zərdabi LTD MMC, 2014, 60s.
2. <https://www.trend.az/life/culture/1446543.html>
3. <https://www.trend.az/life/culture/1926580.html>
4. <https://www.trend.az/life/culture/3157505.html>
5. <https://www.trend.az/life/culture/2233233.html>
6. <https://www.trend.az/life/culture/2234731.html>